26 saylı з/б

**AZƏRBAYCAN RESPUBLİKASI VƏKİLLƏR KOLLEGİYASININ**

**SƏDRİ CƏNAB ANAR BAĞIROVA**

Bakı şəhəri,Səbail rayonu,Badamdar 3-cü Y/M ev 985 ünvanında

qeydiyyatda olan Agayev Cahangir Hacı oğlu tərəfindən

# TƏŞƏKKÜR MƏKTUBU

**HÖRMƏTLİ ANAR MÜƏLLİM !**

Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının əsas vəzifəsi hər bir şəxsin hüquq və azadlıqlarının, qanunla qorunan mənafelərinin müdafiə edilməsindən, onlara peşəkar, yüksək keyfiyyətli, vicdanlı hüquqi yardım göstərilməsini təmin etməkdən, vəkillik peşəsinin nüfuzunu yüksəltməkdən ibarətdir.Məlum olduğu kimi son dövrlərdə Azərbaycanda bir sıra sahələrdə olduğu kimi vəkillik institutu da inkişafı yolunu tutmuş, bu sahədə ardıcıl, eyni zamanda əsaslı tədbirlər keçirilir.

Məhz SİZİN rəhbərliyiniz altında görülən işlərin nəticəsi kimi Azərbaycanda vəkillik institutunun sürətli inkişafı,vəkil korpusunun güclənməsi, ölkəmizdə vəkillərin və vəkil qurumlarının sayının artması, ölkəmizdə vəkillik peşəsinin nüfuzunun artmasında mühüm rol oynayıb.Artıq vəkillik peşəsinə maraq böyüyüb,vəkillik peşəsinin nüfuzu artıb,gənclər bu peşəyə böyük həvəs göstərirlər.

Belə gənclərdən birini,Bakı şəhəri 26 saylı Vəkil Bürosunda fəaliyyət göstərən düzgünlük,vicdanlılıq cəsarətlilik,peşəkarlıq kimi prinsiplərə malik olan vəkil Nurməmmədov Araz Mayıl oğlunu misal göstərmək olar.

"Vətən Fədailərinin Hüquqlarının Müdafiəsi" İctimai Birliyi Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "vətən müharibəsi iştirakçıları və şəhid ailələrinə hüquqi yardımların göstərilməsi" adlı layihə çərçivəsində,mən də bir "Vətən Müharibəsi İştirakçısı" kimi,işlədiyim "Xaliq Faiqoğlu" Məhdud Məsuliyyətli Cəmiyyətdə mövcud problemlər,əsasən də əmək hüququm kobud şəkildə pozulması ilə əlaqədar Araz Nurməmmədova müraciət etdim və mənə hüquqi yardım göstərməsini xahiş etdim. Araz Nurməmmədovun səmimiyyəti,vətəndaşlarla nəzakətli davranışı,xüsusilə də mənim kimi yaşlı insanlara hörmət və ehtiramı xoş təəssüratlar bəxş etdi.O təmənnasız,qısa müddət ərzində mövcud problemləri araşdıraraq bütün hüquqi prosedurları həyata keçirdi və son nəticədə iddia ərizəsi ilə məhkəməyə müraciət etdim. Binəqədi Rayon Məhkəməsinin 15.03.2024-cü il tarixli qətnaməsi ilə verdiyimiz iddia tələbi təmin edildi. Qarşı tərəf Appelyasiya şikayəti versə də Araz müəllimin,dərin hüquqi bilikləri,peşəkarlığı, və prinsipiallığı sayəsində Bakı Appelyasiya Məhkəməsinin Mülki Kollegiyasının 28.06.2024-cü il tarixli qərardadı ilə Appelyasiya şikayəti təmin edilmədi və 1-ci instansiya Məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanıldı.

Yeni nəsil savadlı,peşəkar vəkillərin seçimində göstərdiyiniz xüsusi diqqət və qayğıya görə şəxsən SİZƏ və Araz Nurməmmədova dərin minnətdarlığımı bildirirəm,bu çətin və şərəfli dövlət fəaliyyətinizdə sizə böyük uğurlar, şəxsi həyatınızda isə möhkəm can sağlığı arzulayıram. Son olaraq, ölkemizdə vəkillik sahəsində əldə olunmuq təqdirəlayiq nailiyyətləri əhali arasında və peşəkar dairələrdə təşviq etmek, bu sahədə ictimai etimadı daha da artırmaq məqsədilə bu məktubun ictimailəşdirilməsinə dair münasibət bildirməyinizi xahiş edirəm.

HÖRMƏTLƏ : AGAYEV C. H.

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 3327
«05» 08 2024